## Əliağa Abbasov - 60

# Xeyirxahlıq yolunun 60 ili

***Bəzən insan elə bir ailədə, elə bir mühitdə böyüyür ki, düşünmək onun üçün peşə yox, həyat tərzinə çevrilir. Əliağa Abbasovun ömür yolu da məhz belə bir başlanğıcdan qaynaqlanır.***

Kimdir Əliağa Abbasov? Bu yerdə zəruri qeydləri oxucularımızın diqqətinə çatdırmaq istərdik.

Abbasov Əliağa Bəhmən oğlu 1966-cı il fevralın 28-də Azərbaycanın dilbər guşəsi olan Laçın şəhərində ziyalı ailəsində anadan olub. 1973-cü ildə Laçın şəhər 2 saylı tam orta məktəbin birinci sinfinə qəbul olub, 1983-cü ildə həmin məktəbi bitirib. 1983-84-cü illərdə Laçın rayon kommunal təssərüfatı birliyində işləyib. 1984-1986-cı illərdə hərbi xidmətdə olub. 1987-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (İndiki Memarlıq və İnşaat Universiteti) Sənaye və mülki tikinti fakültəsinin əyani şöbəsinə daxil olub və 1992-ci ildə həmin institutu bitirib. 1992-1997-ci illərdə tikinti-inşaat sektorunda iş icraçısı, baş mühəndis vəzifələrində çalışıb.

1986-cı ildən etibarən, Azərbaycan Qızıl Aypara Cəmiyyətində könüllü, daha sonra üzv olub. 1997-ci ildən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraiyyə Komitəsinin (indiki Katiblik) Gənclər və könüllülər şöbəsində inspektor vəzifəsinə təyin olunub. Sonrakı dövrlərdə İnzibati və təşkilati işlər şöbəsinin baş inspektoru, həmin şöbənin müdir müavini, şöbə müdiri, Regional mərkəzlər və yerli bölmələrlə iş şöbəsinin müdiri vəzifələrində çalışıb. Hal-hazırda Humanitar yardım şöbəsinin müdiri vəsifəsini icra edir.



AzQAC Baş Məclisinin üzvüdür.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Gözəl ailə başçısıdır, iki övladı var.

Fevralın 28-də ömrünün müdriklik çağını - 60 yaşını qeyd etməyə hazırlaşan Əliağa Abbasov həyatını insanlara xidmətə həsr etmiş ziyalı nəslin layiqli davamçılarındandır. O, ziyalı ailədə dünyaya göz açıb. Atası Bəhmən kişi uzun illər Azərbaycan Qızıl Aypara Cəmiyyəti Laçın rayon bölməsinin sədri kimi fəaliyyət göstərib, çətin və mürəkkəb dövrlərdə insanların yanında olub. Humanizm, mərhəmət və vətənpərvərlik kimi ali dəyərlər ailə mühitində formalaşıb, övladın xarakterinə hopub. Bu gün həmin nəcib missiyanı ailənin yeni nəslinin nümayəndəsi - oğlu davam etdirir. Beləliklə, xeyirxahlıq estafeti bir nəsildən digərinə ötürülüb.

Əliağa Abbasovun Azərbaycan Qızıl Aypara Cəmiyyətindəki əmək yolu 1997-ci ildən başlayır. O, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və könüllülər şöbəsində inspektor kimi fəaliyyətə başlayaraq, qısa müddətdə öz məsuliyyəti, təşkilaçılıq bacarığı və insanlarla işləmək qabiliyyəti ilə seçilib. Humanitar fəaliyyət onun üçün sadəcə, iş deyil, həyat amalına çevrilib.

Hazırda Cəmiyyətin Humanitar yardım şöbəsinin müdiri vəzifəsində çalışan Əliağa Abbasov ehtiyacı olan ailələrin sosial problemlərinin həllində, aztəminatlı və həssas qrupların dəstəklənməsində fəal iştirak edir. Onun rəhbərliyi ilə həyata keçirilən layihələr yüzlərlə insanın həyatına ümid, sevinc və inam bəxş edib.

Uzun illər səmərəli fəaliyyətinə görə o, Cəmiyyətin Rəyasət Heyətinin Fəxri fərmanları və Yubiley medalı ilə təltif olunub. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanovun təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 4 mart 2015-ci il tarixli 1085 saylı Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub. Lakin onun üçün ən böyük mükafat insanların minnətdarlığı, duaları və xeyirxah əməyin bəhrəsini görməkdir.

60 illik ömür yoluna nəzər saldıqda aydın görünür ki, Əliağa Abbasov üçün həyatın mənası vətəndaşlıq məsuliyyəti, humanizm və insana sevgi üzərində qurulub. O, təkcə bir qurumun əməkdaşı deyil, həm də mərhəmət məktəbinin sədaqətli davamçısıdır.

60 il - bu, təkcə zaman ölçüsü deyil. Bu, yığılmış işığın, səssiz duaların, gizli xeyirxahlığın hesabatıdır.

Bu yubiley bir nöqtə deyil - bir vergüldür. Yol davam edir. Qoy qəlbində bir işıq daşıyan bu insanın çırağı uzun illər sönməsin, qoy onun nuru ehtiyacı olanların yoluna düşsün, qəlblərə istilik, cəmiyyətə isə insanlıq nəfəsi gətirsin. Əliağa Abbasova möhkəm cansağlığı, ailə səadəti və gələcək fəaliyyətində yeni uğurlar arzulayırıq. Onun həyat yolu göstərir ki, xeyirxahlıq ən böyük mirasdır və bu miras yaşadıqca cəmiyyət də yaşayır.

✍ **Şəmsiyyə Kərimova,**
**Əməkdar jurnalist**